# Heydər Əliyev:
# “Xalq dövlət üçün deyil, dövlət xalq üçündür”

*Dünya təcrübəsi və baş verən ictimai-siyasi proseslərin təhlili göstərir ki, cəmiyyətin inkişaf dinamikasını müəyyən edən milli-fəlsəfi düşüncə dövlətçiliyin təməl daşıdır. Milli intellektin səfərbər edilməsi, onun elmi-fəlsəfi özünüdərk konsepsiyasının hazırlanması, hüquqi və siyasi şüurun yüksəldilməsi, hər bir fərdin maraqlarının cəmiyyətdə gedən proseslərlə uzlaşdırılması böyük mütəfəkkirlərin, ictimai-siyasi liderlərin üzərinə çətin və şərəfli vəzifələr qoyur. İctimai şüur ictimai varlıqda təzahür edən dəyişikliklərə uyğunlaşmadan, fərdlər vətəndaşa çevrilmədən cəmiyyətdə demokratiyanın bütün komponentlərinin qərarlaşması, dövlətin təməlinin möhkəmləndirilməsi mümkün deyildir.*



Ulu Öndər Heydər Əliyev SSRİ-nin rəhbərlərindən biri kimi nəhəng imperiyanın ağrı-acılarına, onu çökdürən sosial-iqtisadi, hərbi-siyasi problemlərə yaxşı bələd idi. NATO-nun sabiq baş katibi, Avropa İttifaqının ali nümayəndəsi Xavyer Solana dünyanın, regionun, həmçinin sosialist düşərgəsinə daxil olan ölkələrin və xalqların problemlərini, istək və arzularını yaxşı bilən Ulu Öndərin siyasi fəaliyyətini yüksək dəyərləndirərək yazırdı: "Bizim günlərdə hadisələr çox sürətlə cərəyan edir, qloballaşır, təhlükəsizlik məsələləri xüsusi olaraq gündəlikdə durur. Bu baxımdan prezident Heydər Əliyev kimi təcrübəli siyasətçi ilə fikir mübadiləsindən çox şey əldə etmək mümkündür. Prezident Heydər Əliyevin müdrik, uzaqgörən siyasəti nəticəsində Asiya və Avropa ilə əlaqələr güclənir, əməkdaşlıq körpüsü qurulur".

Heyrətamiz zəkası, dövlətçilik təfəkkürü, yüksək insani keyfiyyətləri, işgüzarlığı, yenilməz iradəsi, prinsipiallığı sayəsində dünyada böyük hörmət, ehtiram və şan-şöhrət qazanmış Heydər Əliyevə Polşa Respublikasının sabiq prezidenti Aleksandr Kvasnevskinin ünvanladığı məktubda deyilir: "Polşada Sizi görkəmli dövlət xadimi və dost dövlətin lideri kimi, bir neçə il bundan əvvəl Mərkəzi və Şərqi Avropada baş vermiş böyük dəyişikliyin arxitektorlarından biri kimi tanıyır və qiymətləndirirlər. Bir Xəzər dənizi hövzəsinin strateji cəhətdən çox mühüm regionunda vəziyyətin normallaşdırılması üçün Sizin göstərdiyiniz diplomatik fəallığı xüsusi diqqətlə izləyirik".

Heydər Əliyev dünya miqyasında sözünün kəsəri və sanballı olan, nadir və fərqli siyasi lider, qürur duyduğumuz böyük azərbaycanlı idi. Onun siyasətdə, həyatda, dövlətçilik müstəvisində qazandığı uğurların bir səbəbi də bu idi. Ulu öndər qeyd edirdi ki, postindustrial dövrün ictimai şüurda yeni stereotiplər formalaşdırmasından, cəmiyyətə yeni mənəvi-əxlaqi komponentlər gətirməsindən asılı olmayaraq, bizim əsas vəzifəmiz milli tariximizi, mənəvi dəyərlərimizi qoruyub saxlamaq, onların varisliyini təmin etməkdir.

Ötən əsrin sonlarında Azərbaycanda hakimiyyətdə olan AXC-Müsavat iqtidarından Heydər Əliyevə çox ağır siyasi miras qalmışdı. Şəxsi maraqlar milli mənafeni üstələmiş, idarəetmə fəlsəfəsi, dövlətçilik məfkurəsi neqativ elementlərlə yüklənmişdi. Belə bir şəraitdə geosiyasi və geostrateji müstəvidə uğur qazanmaq, vaxt itirmədən qonşu dövlətlərlə sosial-siyasi və diplomatik münasibətləri, əməkdaşlıq əlaqələrini nizamlamaq üçün yeni siyasət doktrinası formalaşdırmalı idi. Bütün xalqımız, ilk növbədə, siyasi, iqtisadi və elmi elitamız yeni məqsədlər, tərəqqi və inkişaf naminə səfərbər olunmalı, cərəyan edən mürəkkəb hadisələrin bütün aspektlərini təhlil edərək yolumuzu müəyyənləşdirməli idi.

Ulu Öndər yeni cəmiyyətə transformasiya prosesində inkişaf və yeninin yaradılmasına səy göstərməyin və keçmişlə varisliyin qorunub saxlanılmasının, qarşılıqlı əlaqəsini təmin etməyin vacibliyini qeyd edirdi. Bildirirdi ki, əks halda ideya-siyasi, sosial-fəlsəfi və yenilikçi dövlətçilik konstruksiyası bu iki təməl prinsip nəzərə alınmadan uğur qazana, gerçəkləşə bilməz.

Azərbaycan dövlətinin iqtisadiyyatının inkişafı, ölkənin siyasi nüfuzunun artması, beynəlxalq əlaqələrin genişlənməsi, insan amilinin ön plana çəkilməsi, cəmiyyətin birliyinin və həmrəyliyinin möhkəmlənməsi yeni tarixi yüksəliş mərhələsində Ulu Öndər tərəfindən daim diqqət mərkəzində saxlanılırdı.

Tarix heç kimin xidmətlərini unutmur. Ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyəti əsasən XX əsrin ikinci yarısı ilə bağlıdır. Ötən əsr bəşər tarixində bir çox təlatümlü hadisələrin, iki dünya müharibəsinin baş verdiyi, çoxsaylı milli dövlətlərin meydana gəldiyi, müxtəlif vaxtlarda müstəqillik qazandığı, siyasi və iqtisadi böhranların ölkələri sınağa çəkdiyi, eyni zamanda dünya inkişafına böyük təkan verən proseslərin yaşandığı qlobal ziddiyyətlərlə dolu dramatik yüzillik kimi səciyyələnir. Bəşəriyyət ziddiyyətli, siyasi kataklizmlərlə dolu dünyadan dahi şəxsiyyətlərin müdrikliyi, fədakarlığı, misilsiz xidmətləri sayəsində sabit və dayanıqlı dünyaya keçid etmək arzusunda idi. XX əsr böyük şəxsiyyətlərin tarixdəki rolu baxımından ibrətamiz bir dövr idi. Etiraf edək ki, ötən əsri Atatürksüz, Ruzveltsiz, Çörçillsiz, Adenauersiz, De Qollsuz, eləcə də Heydər Əliyevsiz təsəvvür etmək mümkün deyil. Tarixi sınaqlar qarşısında öz xalqlarını məhv olmaq təhlükəsindən böyük siyasi məharətlə çıxarmağa nail olmuş bu şəxsiyyətlər XX əsrin müxtəlif dövrlərində təkcə öz ölkələrinin deyil, həm də regionun və bu regionda yaşayan xalqların tarixində dönüş yaratmağa nail olmuşlar.

Ümummilli Lider dövlətimizin inkişafının, müstəqilliyinin təməli qoyulan XX əsrin ikinci yarısında baş verən prosesləri təhlil edərək demişdir: "Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji bütün 70-ci illərin bariz əlamətinə çevrildi. 1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçirilməsinə görə doqquzuncu, onuncu və on birinci beşilliklər Azərbaycanın yeni tarixində ən mühüm yerləri tutur. SSRİ hökuməti Azərbaycanla əlaqədar, respublikada xalq təsərrüfatının hərtərəfli yüksəlişi və intensiv inkişafını nəzərdə tutan beş xüsusi qərar qəbul etmişdi. Azərbaycan xalqı üçün həqiqətən tarixi əhəmiyyət daşıyan bu mühüm qərarlar 70-80-ci illər arasında və daha sonrakı perspektivdə ölkənin sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə kompleks məsələləri müəyyənləşdirmişdi. Qəbul olunmuş proqramın həlli yolunda böyük iş aparmağa başlayan fəhlə və kolxozçular, respublika ziyalıları iqtisadiyyat və mədəniyyətin bütün sahələrində xalqın maddi və mənəvi baxımdan artan tələbatlarının təmin olunması işində çox yüksək nəticələr əldə etmişlər. Müharibədən sonrakı dövrdə ilk dəfə olaraq, doqquzuncu və onuncu beşilliklər üçün xalq təsərrüfatının inkişaf planları vaxtından əvvəl yerinə yetirilmişdi. Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır".

Ötən əsrin sonlarında erməni separatçılarının baş qaldırması, milli xəyanətlər, torpaqlarımızın Ermənistan tərəfindən işğalı, ağır siyasi, iqtisadi, hərbi böhran Azərbaycana qarşı məkrli siyasətin planlı və məqsədli tərkib hissəsi idi.

Həmin dövrdə Azərbaycanın dövlət müstəqilliyini qorumaq və yaşatmaq missiyasını yalnız dəmir iradəyə, fitri idarəçilik istedadına malik xarizmatik lider - Heydər Əliyev həyata keçirə bilərdi.

Xalq öz taleyini yalnız böyük dövlət xadimi, ağır sınaqlardan şərəflə çıxmış Heydər Əliyevə etibar etmək qərarına gəlmişdi. İyunun 9-da Naxçıvandan xalqın təkidli tələbi ilə Bakıya gələn Heydər Əliyev, iyunun 13-də mətbuat nümayəndələri ilə birlikdə Gəncə şəhərinə getdi, vəziyyətlə tanış olduqdan sonra məsləhət və tövsiyələrini verərək Bakıya qayıtdı. İyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi.

Azərbaycan Respublikası Milli Məclisinin 16 iyul 1993-cü il tarixli qərarında Gəncə şəhərində baş vermiş hadisələri təhqiq edən deputat-istintaq komissiyasının işinin yekunu barədə deyilir: "Gəncədə baş verən iyun hadisələri ölkədə son həddə çatmış böhranın, cəbhə bölgələrində bir-birinin ardınca baş vermiş uğursuzluqların, hakimiyyətdə olanların pozucu fəaliyyətlərinin gücləndiyi və xüsusilə iqtidara qarşı ümumxalq inamının tam sarsıldığı bir dövrdə baş verdi. Gəncə hadisələri bütün bunların ört-basdır edilməsini təmin etmək məqsədilə iqtidar və respublikanın digər yüksək vəzifəli şəxsləri tərəfindən öz xalqına qarşı yönəldilmiş, bununla da respublikada demokratiyanı hərbi-polis rejiminə çevirmək, iqtidara qarşı baş qaldıran qüvvələrin aradan götürülməsinə və məhv edilməsinə nail olmaq cəhdləri ilə bağlı təşkil edilmiş aksiyadır".

Milli Məclisin qərarında daha sonra bildirilirdi ki, Azərbaycan Xalq Cəbhəsi dövlət sistemində heç bir statusa malik olmadığı halda, AXC rəhbərliyi həmin əməliyyatın keçirilməsi ilə əlaqədar tədbirlərin hazırlanmasında iştirak etmiş və hərbi əməliyyatın həyata keçirilməsində başqa hərbi hissələrlə birlikdə özünün sərəncamında olan xüsusi batalyonu Gəncə şəhərinə göndərmişdir. İqtidar tərəfindən Gəncəyə göndərilmiş silahlı qüvvələrin ümumi sayı üç mindən artıq olmuşdur. Bütün bunlar Gəncə şəhərində, respublikada silahlı qarşıdurma yaratmış, qardaş qanının tökülməsinə səbəb olmuşdur.

Respublikada vətəndaş qarşıdurmasını, qardaş qırğınını aradan qaldıran Heydər Əliyev müstəqil, müasir dövlətçilik tariximizə Qurtuluş mübarizəsinin lideri kimi daxil oldu, dövlətçiliyin xilaskarı kimi şərəfli bir ad qazandı. Azərbaycan xalqı 1993-cü il oktyabrın 3-də keçirilən prezident seçkilərində Ulu Öndərə tükənməz sevgisini, inam və etibarını ifadə etdi.

Azərbaycan Respublikası Milli Məclisinin 1997-ci il iyunun 27-də qəbul etdiyi qərarda deyilir: "Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyev cənablarının ölkənin dərin ictimai-siyasi və iqtisadi böhrandan çıxarılmasında, vətəndaş müharibəsinin qarşısının alınmasında, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunmasında və möhkəmləndirilməsində, dövlətimizin beynəlxalq aləmdə böyük uğurlar qazanmasında, Azərbaycan dövlətçiliyinin nailiyyətlərində müstəsna xidmətləri qeyd edilsin və 15 iyun günü Azərbaycan xalqının Milli Qurtuluş Günü elan edilsin".

Dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşması prosesində təməl istinadgah olan Əsas Qanun işlənib hazırlanarkən beynəlxalq hüquq normalarının mühüm dəyərlərinə, insan hüquq və azadlıqlarına, milli mental meyarların ədalət, obyektivlik kimi məziyyətlərinə xüsusi önəm verən Heydər Əliyev Konstitusiyada Azərbaycanın unitar, dünyəvi, hüquqi dövlət olaraq təsbit olunmasının ölkəmiz və dövlətçiliyimiz üçün xüsusi əhəmiyyət kəsb etdiyini bildirdi. 1995-ci il noyabrın 24-də yeni parlamentin ilk iclasında çıxış edən Heydər Əliyev ötən illərin ağrılı təcrübəsini xatırladaraq hakimiyyət fəlsəfəsinin fundamental məramını açıqladı: "Biz keçmişdən, totalitar sistemdən yeni bir sistemə keçirik. Biz demokratiyanı inkişaf etdirməliyik, xalqımızı demokratiya yolu ilə aparmalıyıq, insanların hüquqlarının qorunmasının hər yerdə, hər sahədə təmin olunması üçün əsaslar yaratmalıyıq. Bütün bu əsasları da yeni qəbul olunmuş konstitusiya verir və bütün təminatları biz konstitusiyanın maddələrindən almışıq. Konstitusiya Azərbaycanda dövlət hakimiyyətinin təşkil olunmasını tam demokratik prinsiplər əsasında təsdiq edibdir. Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır və hər bir hakimiyyət ancaq xalqın iradəsi əsasında əldə oluna bilər...

Biz ilk dəfə müstəqil Azərbaycan Respublikasının Konstitusiyasını qəbul etmişik və bu konstitusiya xalqın ümumxalq səsverməsi yolu ilə - referendum yolu ilə qəbul olunubdur. Deməli, bu, xalqın konstitusiyasıdır, hər bir vətəndaşın konstitusiyasıdır".

"Xalq dövlət üçün deyil, dövlət xalq üçündür" devizini bütün həyatının və prezidentlik fəaliyyətinin ali məramına çevirən Heydər Əliyev demokratik dəyərlərə hər zaman xüsusi önəm vermişdi.

> *“Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə möhtəşəm qayıdışı Azərbaycanın XX əsr tarixinin taleyüklü hadisələrindən biri olaraq, ümummilli düşüncə müstəvisində dərk edilən və xüsusi dəyər verilən zərurət idi. Ümummilli liderin dövlətçiliyin ideoloji-siyasi və sosial-iqtisadi əsaslarını formalaşdıraraq, müasir və modern dövlət modelini yaratması onu xalqın qəlbində ölməzlik zirvəsinə ucaltdı. Azərbaycan cəmiyyəti əsası Heydər Əliyev tərəfindən qoyulan dövlətçilik təlimini ölkənin beynəlxalq təhlükəsizliyinin, iqtisadi maraqlarının, siyasi sabitliyin təmin olunmasına yönəlmiş mükəmməl strateji konsepsiya kimi yüksək dəyərləndirir.”*

Avstriya və Britaniyanın görkəmli filosofu, sosioloqu, tənqidi rasionalizm fəlsəfi konsepsiyasının banisi Karl Raymund Popper demokratiya və sosial tənqidçilik prinsiplərinin müdafiəçisi kimi hökumətin öz siyasətini dəyişən tarixi şəraitə uyğunlaşdıra bilməsi üçün siyasi sistemin mütəhərrik və çevik olmasının labüdlüyünü təlqin edərək yazırdı: "Biz özümüzü peyğəmbər kimi göstərməkdənsə, öz taleyimizin yaradıcısı olmalıyıq. Biz hər şeyi bacardığımız qədər yaxşı etməyi və öz səhvlərimizi üzə çıxarmağı öyrənməliyik. Siyasi hakimiyyət tarixinin bizi mühakimə edəcəyi haqqında ideyanı başımızdan çıxarmaqla və tarixin bizə bəraət verib verməyəcəyi barədə narahatlıqdan xilas olmaqla biz yəqin ki, müvəffəqiyyət qazana bilərik". Bu mənada, Heydər Əliyev dahi şəxsiyyət və unikal xarizmatik lider olaraq həm öz taleyini, həm də mənsub olduğu xalqın taleyini, möhtəşəm tarixini yaratmağı bacardı.

1992-ci il noyabrın 21-də xalqın iradəsi ilə güclü Lider ətrafında Yeni Azərbaycan Partiyasının yaradılması müstəqillik və müasir dövlətçilik tariximizin həlledici anı və dönüş nöqtəsi oldu. Yeni Azərbaycan Partiyası Heydər Əliyevin rəhbərliyi və xalqın dəstəyi ilə ictimai-siyasi sabitliyin, iqtisadi inkişafın təmin olunması, dövlətçiliyin möhkəmləndirilməsi, gənc respublikanın beynəlxalq mövqeyinin gücləndirilməsi istiqamətində tarixi nailiyyətlərə imza atdı.

Təkcə Azərbaycanın deyil, regionun ən mütəşəkkil və nüfuzlu siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının ölkəmizin müstəqillik və dövlətçilik tarixində müstəsna rolu var. Bu, bir həqiqətdir ki, Yeni Azərbaycan Partiyası artıq siyasi sistemin avanqard qüvvəsinə çevrilib və ölkəmizdə siyasi mədəniyyətin inkişafına, siyasi sistemin yenilənməsinə, təkmilləşməsinə təqdirəlayiq töhfələr verən ümumxalq partiyasıdır. Eyni zamanda malik olduğu resurslara, ictimai-siyasi nüfuzuna, fəaliyyət mexanizminin səmərəlilik əmsalına görə Avropanın və Asiyanın aparıcı siyasi partiyaları arasında layiqli yer tutur. Ölkəmizdə həyata keçirilən hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğunda, demokratik inkişaf prosesində fəal iştirak edən Yeni Azərbaycan Partiyası yeni-yeni qələbələr və uğurlar qazanır.

Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə möhtəşəm qayıdışı Azərbaycanın XX əsr tarixinin taleyüklü hadisələrindən biri olaraq, ümummilli düşüncə müstəvisində dərk edilən və xüsusi dəyər verilən zərurət idi. Ümummilli liderin dövlətçiliyin ideoloji-siyasi və sosial-iqtisadi əsaslarını formalaşdıraraq, müasir və modern dövlət modelini yaratması onu xalqın qəlbində ölməzlik zirvəsinə ucaltdı. Azərbaycan cəmiyyəti əsası Heydər Əliyev tərəfindən qoyulan dövlətçilik təlimini ölkənin beynəlxalq təhlükəsizliyinin, iqtisadi maraqlarının, siyasi sabitliyin təmin olunmasına yönəlmiş mükəmməl strateji konsepsiya kimi yüksək dəyərləndirir.

Müstəqilliyin ilk illərində iqtisadi xaos və staqnasiya nəticəsində milli gəlirin 70 faizdən çoxu itirilmişdi. Belə bir şəraitdə əsaslı islahatlar aparmaq müşkül məsələ idi. Lakin Heydər Əliyev dövlətin maliyyə imkanlarının məhdudluğuna baxmayaraq, sarsılmaz iradə nümayiş etdirir, ölkənin siyasi, iqtisadi və mədəni mənzərəsini dəyişməyə davam edirdi. "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı" təsdiq edildikdən sonra radikal dövlətsizləşdirmə tədbirləri çərçivəsində minlərlə müəssisə özəlləşdirildi, qiymətlər liberallaşdırıldı, bəzi iqtisadi məhdudiyyətlər aradan qaldırıldı, bazar iqtisadiyyatına dinamik keçid başlandı, torpaq islahatı aparıldı.

1994-cü il sentyabrın 20-də "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında" Dövlət Neft Şirkəti (SOCAR) ilə dünyanın aparıcı neft şirkətləri arasında imzalanan müqavilə Azərbaycanın dövlət müstəqilliyini de-fakto təsdiqləyən, onun dünya birliyinə inteqrasiyasına, bu gün bynəlxalq enerji bazarında önəmli yer tutmasına əlverişli imkanlar yaradan epoxal hadisə oldu. Bu tarixi müqavilə indiyə qədər qazandığımız bütün nailiyyətlərin təməlində dayanır.

Bakı-Supsa və Bakı-Novorossiysk boru kəmərləri "Əsrin müqaviləsi" çərçivəsində hasil ediləcək böyük neft həcmlərini dünya bazarına ixrac etmək gücündə deyildi. Ona görə də Ulu Öndər Heydər Əliyev Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft boru kəmərinin inşası ideyasını gündəmə gətirdi. Respublikamızın daxildəki və xaricdəki bədxahları guya Azərbaycanın gələcəkdə bu kəmərlə ixrac etmək üçün kifayət qədər nefti olmayacağı barədə beynəlxalq ictimai rəydə əsassız fikir yaratmağa çalışırdılar. Lakin zaman Heydər Əliyevin nə qədər müdrik və uzaqgörən dövlət xadimi olduğunu bir daha təsdiqlədi. 2002-ci ildə Ulu Öndərin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməli qoyuldu. Bundan dörd il sonra Azərbaycan nefti BTC kəməri vasitəsilə Ceyhan limanına çatdırıldı.

İqtisadi cəhətdən səmərəli yeni kəmərin inşası ilə Azərbaycan dünyanın enerji təminatı xəritəsini tamamilə dəyişdi, siyasi səhnədə sayılıb-seçilən nüfuzlu aktora çevrildi. Həmin tarixi günlərdə ABŞ-ın tanınmış siyasi xadimi Qreq Laflin Ulu Öndər Heydər Əliyevin yorulmaz fəaliyyətini yüksək dəyərləndirərək yazırdı: "Cənab Prezident, mən Nyu-Yorkda Sizi Mərkəzi Asiyanın Corc Vaşinqtonu kimi təqdim etdim. Mən bunu ona görə etdim ki, ABŞ-ın yarandığı ilk illərdə Corc Vaşinqtonun göstərdiyi cəsarət, səylər kimi Siz də Azərbaycanın müstəqilliyinin ilk illərində cəsarət, qətiyyət, mərdlik göstərmisiniz. İki boru kəmərinin çəkilməsi barədə qərarın məhz Sizin şəxsi qətiyyətinizin nəticəsi olduğunu bütün amerikalılar yaxşı bilirlər".

Ötən əsrin 90-cı illərində Azərbaycanın qarşısında duran əsas problemlərdən biri beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi təhdid mənbəyinə çevrilən keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələsi idi. Beynəlxalq təşkilatlar çərçivəsində ciddi müzakirələrə səbəb olan bu problemlə bağlı bir sıra mühüm sənədlər qəbul edilmişdi. Ümummilli Lider Ermənistan-Azərbaycan münaqişəsinin həllinə kompleks yanaşmanın vacibliyini vurğulayaraq, mühüm daxili və xarici siyasət amillərinin nəzərə alınmasını tövsiyə edir, döyüş qabiliyyətli nizami ordunun yaradılması, dövlət institutlarının yenidən formalaşdırılması və onların səmərəli fəaliyyətinin təmin edilməsi istiqamətində strateji əhəmiyyət kəsb edən ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirirdi.

1994-cü il mayın 12-də cəbhədə atəşkəsə dair razılıq əldə olundu. O vaxta qədər Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın 20 faiz ərazisi işğal olunmuş, 1 milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, 20 min nəfərdən çox azərbaycanlı hərbi əməliyyatlar dövründə öldürülmüş, 50 min nəfər yaralanmışdı. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamədə münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli üzrə siyasi prosesin hüquqi əsasları müəyyən edilərək, işğalçı qüvvələrin Azərbaycanın ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunurdu.

1997-ci ildə ATƏT-in keçmiş Minsk qrupunda yeni həmsədrlik institutunun yaradılması, Rusiya, ABŞ və Fransanın həmsədr ölkələr təyin edilməsi danışıqlar prosesinə müəyyən impuls versə də, təklif olunan saziş layihələrinə Ermənistan məhəl qoymadı, konstruktivlikdən uzaq mövqe nümayiş etdirdi. Proseslərin öz maraqlarına uyğun cərəyan etmədiyini görən Ermənistan hərbi təxribatlar yolu ilə danışıqlar prosesini pozmağa başladı. Nüfuzlu təşkilatların Azərbaycanın münaqişə ilə bağlı beynəlxalq hüquqa və tarixi ədalətə əsaslanan haqlı mövqeyini dəstəkləyən çoxsaylı sənədlər qəbul etməsinə, dünya ictimaiyyətinin substantiv danışıqlara ciddi çağırışlarına baxmayaraq, Ermənistan qoşunların təmas xətti boyunca vəziyyəti gərginləşdirməyə davam edirdi.

Ermənistanın baş naziri Nikol Paşinyanın 2019-cu il avqustun 5-də Xankəndidə "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə" açıqlaması ilə çıxış etməsinə Azərbaycanın cavabı çox sərt və sərrast oldu. Prezident İlham Əliyev 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında çıxışı zamanı Paşinyanın sərsəm bəyanatına belə cavab verdi: "Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır! Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

Ermənistanın Azərbaycanın işğal olunmuş torpaqlarında 2020-ci ilin mart ayında qondarma "seçkilər" keçirməsi, iyulda dövlət sərhədinin Tovuz istiqamətində hərbi təxribatlar törətməsi, avqustda terror aktlarının təşkili məqsədilə Azərbaycan ərazisinə diversiya qrupu göndərməsi, "yeni ərazilər uğrunda yeni müharibə" çağırışı Azərbaycanın səbrini daşırdı. Təcavüzkar ritorika Ermənistan rəhbərliyini ağıl və zəkadan məhrum etmişdi. Ermənistanın 2020-ci il sentyabrın 27-də bir neçə istiqamətdən mövqelərimizə hücumuna cavab olaraq Azərbaycan Ordusu əkshəmlə əməliyyatına başladı və 44 gün davam edən Vətən müharibəsi nəticəsində Ermənistan ordusunu məğlub etməyə, onu diz çökdürməyə, işğal altında olan ərazilərimizi azad etməyə nail oldu.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müdrik hərbi strategiyası əsasında Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsi zamanı misilsiz rəşadət və qəhrəmanlıq nümunələri göstərərək düşmənin 30 ildən artıq davam edən hərbi təcavüzünə son qoymaqla Vətən və xalq qarşısında şərəfli vəzifəsini layiqincə yerinə yetirdi. Noyabrın 8-də mədəniyyətimizin beşiyi, Qarabağın tacı Şuşa şəhərinin düşməndən azad olunması, Şuşa qalası üzərində bayrağımızın ucaldılması Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında qazanılan Böyük Qələbənin, Şanlı Zəfərin möhtəşəm qəhrəmanlıq səhifəsi, unudulmaz təntənəsi kimi tariximizə əbədi həkk olundu. 2020-ci il noyabrın 10-da "Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı" qəbul edildi. Ermənistan kapitulyasiya aktını imzalasa da, üçtərəfli Bəyanatın tələblərini yerinə yetirmir, Qarabağdakı separatçı ünsürlərə dəstək verirdi.

Azərbaycan üçtərəfli Bəyanatın müddəalarının yerinə yetirilməsi, Qarabağ iqtisadi rayonunda törədilən təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, suverenliyimizin, Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə 2023-cü il sentyabrın 19-20-də Qarabağda antiterror tədbirlərinə başladı. Antiterror tədbirləri çərçivəsində ordumuz yüksək peşəkarlıq nümayiş etdirərək qanunsuz erməni silahlı birləşmələrinin ön xətt və dərinliklərdə olan mövqelərini, uzunmüddətli atəş nöqtələrini, döyüş vasitələrini, hərbi obyektləri və infrastrukturu hədəfə alaraq nöqtə atışlı zərbələrlə məhv etdi. Ermənistan silahlı qüvvələrinin qanunsuz hərbi birləşmələri ağ bayraq qaldıraraq təslim oldu, qondarma rejimin qalıqları isə onun ləğv olunduğunu elan etdi.

Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paradda Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev çıxış edərək demişdir: "Bu günü bizə bəxş edən müzəffər Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq, fədakarlıq göstərərək düşməni bizim əzəli torpaqlarımızdan qovmuşdur. Bu, böyük tarixi hadisədir".

**Həsən HƏSƏNOV,**
**Yeni Azərbaycan Partiyasının Təftiş Komissiyasının üzvü, respublikanın Əməkdar jurnalisti.**